**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Səfərəli Əzizov və digərlərinin 26 dekabr 2009-cuil tarixli 113 saylı, vətəndaş Zahid Hidayət oğlu Cəfərov və digərlərinin 26 dekabr 2009-cu il tarixli 115 saylı, vətəndaş Təranə Dəmirova və digərlərinin 26 dekabr 2009-cu il tarixli 117 saylı, vətəndaş Kəklik Yunis qızı Qurbanovanın 26 dekabr 2009-cu il tarixli 118 saylı, vətəndaş Dilqəm Rza oğlu Alırzayev və digərlərinin 26 dekabr 2009-cu il tarixli 124 saylı, vətəndaş Qəsəd Əsədxan oğlu Süleymanovun 26 dekabr 2009-cu il tarixli 125 saylı, vətəndaş Cavid Novruz oğlu Qələndərov və digərlərinin 26 dekabr 2009-cu il tarixli 133 saylı, vətəndaş Aqil Əhmədov və digərlərinin 26 dekabr 2009-cu il tarixli 135 saylı, vətəndaş Yaqub Məhəmməd oğlu Əsədovun 26 dekabr 2009-cu il tarixli 136 saylı, vətəndaş Kərim Xeyrulla oğlu Kərimovun 26 dekabr 2009-cu il tarixli 140 saylı, vətəndaş Aydın Çərkəz oğlu Quliyevin və digərlərinin 26 dekabr 2009-cu il tarixli 142 saylı, vətəndaş Faiq Həsənəli oğlu Məmmədov və digərlərinin 26dekabr 2009-cu il tarixli 151 saylı, Cavad Müzəffər oğlu Cavadov və digərlərinin dekabr 2009-cu il tarixli 161 saylı və vətəndaş Qəmbər Qəmbərovun 26 dekabr 2009-cu il tarixli 165 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

# Q Ə R A R I

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 52 saylı Quba seçki dairəsi üzrə Rustov bələdiyyəsi üzvlüyünə namizəd Səfərəlı Əzizov və digərləri, 83 saylı Ağcabədi-Ağdam seçki dairəsi üzrə Kəhrizli bələdiyyəsinə seçkilərlə əlaqədar Zahid Hidayət oğlu Cəfərov və digərləri, 58 saylı Hacıqabul-Kürdəmir seçkii dairəsi üzrə Abdulabad bələdiyyəsinə seçkilərlə əlaqədar Təranə Dəmirova və digərləri, 53 sayli Quba-Qusar seçki dairəsi üzrə Pirvahid bələdiyyəsi üzvlüyünə namizəd Kəklik Yunis qızı Qurbanova, 105 saylı Tovuz seçki dairəi üzrə İbrahimhacılı bələdiyyəsinə Dilqəm Rza oğlu Alırzayev və digərlərinin, 58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi üzrə İkinci Udulu bələdiyyəsinə seçkilərlə əlaqədar Qəsəd Əsədxan oğlu Süleymanov, 105 saylı Tovuz dairəsi üzrə Xatınlı bələdiyyəsinə Cavid Novruz oğlu Qələndərov, 81 saylı Beyləqan seçki dairəsi üzrə Kəbirli bələdiyyəsinə seçkilərlə əlaqədar Aqil Əhmədov və digərləri, 83 saylı Ağcabədi-Ağdam seçki dairəsi üzrə Şərəfxanlı bələdiyyəsinə seçkilərlə əlaqədar Yaqub Məhəmməd oğlu Əsədov, 79 saylı İmişli seçki dairəsi üzrə Aranlı bələdiyyəsinə seçkilərlə əlaqədar Kərim Xeyrulla oğlu Kərimov, 105 saylı Tovuz seçki dairəsi üzrə İbrahimhacılı bələdiyyəsinə seçkilərlə əlaqədar Aydın Çərkəz oğlu Quliyev və digərləri, 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi üzrə Yuxarı Öysüzlü bələdiyyəsinə seçkilərlə əlaqədar Faiq Həsənəli oğlu Məmmədov və digərləri, 80 saylı İmişli-Beyləqan seçki dairəsi üzrə Ağaməmmədli bələdiyyəsinə seçkilərlə əlaqədar Cavad Müzəffər oğlu Cavadxanov və digərləri və 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə Qaraçuxur bələdiyyəsinə seçkilərlə əlaqədar Qəmbər Qəmbərov Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, seçki məntəqələrində səsvermə günü müxtəlif səpkidə qanun pozuntularına yoll verildiyini bildirib və qanunla müəyyən olunmuş qaydada araşdırmaların aparılmasını xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimatın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən araşdırılaraq bu barədə müvafiq rəylər verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciətlər tam, hərtərəfli və obyektiv surətdə araşdırılmışdır.

Müraciətlərdə göstərilən faktların dairə seçki komissiyaları tərəfindən araşdırılmalı olduğunu nəzərə alaraq, şikayətlər aidiyyəti üzrə araşdırılması və müvafiq tədbirlərin görülməsi üçün müvafiq seçki dairələrinin dairə seçki komissiyalarına göndərilməlidir.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 31.1.1 və 31.1.2-ci maddələrinə əsasən seçki dairəsinin ərazisində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarına riayət olunmasına nəzarəti, Seçki Məcəlləsinin qaydalarının pozulması ilə bağlı şikayətlərə baxıb öz səlahiyyətləri daxilində qərarın qəbul edilməsini dairə seçki komissiyaları həyata keçirir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. Vətəndaş Səfərəli Əzizov və digərlərinin müraciəti 52 saylı Quba seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaşlar Zahid Hidayət oğlu Cəfərov, Yaqub Məhəmməd oğlu Əsədov və digərlərinin müraciəti 83 saylı Ağcabədi-Ağdam seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Təranə Dəmirova və Qəsəd Əsədxan oğlu Süleymanovun müraciəti 58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Kəklik Yunis qızı Qurbanovanın müraciəti 53 saylı Quba – Qusar seçki dairəsinin

dairə seçki komissiyasına, vətəndaş Dilqəm Rza oğlu Alırzayev, Aydın Çərkəz oğlu Quliyev, Cavid Novruz oğlu Qələndərov və digərlərinin müraciəti 105 saylı Tovuz seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Aqil Əhmədov və başqalarının müraciəti 81 saylı Beyləqan seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Kərim Xeyrulla oğlu Kərimovun müraciəti 79 saylı İmişli seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Faiq Həsənəli oğlu Məmmədov və digərlərinin müraciəti 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsinin dairə seçki komissiyasına və vətəndaş Cavad Müzəffər oğlu Cavadov və digərlərinin müraciəti 80 saylı İmişli-Beyləqan seçki dairəsinin dairə seçki komissiyasına və vətəndaş Qəmbər Qəmbərovun müraciəti 31 saylı Suraxanı ikinci seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Qərarın icrası ilə əlaqədar görülmüş tədbirlər barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına məlumat verilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |